**Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 17 yanvar tarixli, 537 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmamışların işləri üzrə Komissiyalar haqqında Əsasnamə"yə əlavələr edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 17 yanvar tarixli, 537 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmamışların işləri üzrə komissiyalar haqqında Əsasnamə"nin 15-ci bəndinə aşağıdakı redaksiyada "i", "ı", və "y" yarımbəndləri əlavə edilsin:

"i) valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların yaşayış yeri və ya olduğu yer üzrə qeydiyyatdan çıxarılmasına razılıq vermək;

ı) valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların mülkiyyətində olmuş özəlləşdirilmiş mənzil sahələri, habelə həmin uşaqların müvəqqəti yaşamadıqları, lakin özəlləşdirmə zamanı müvafiq yaşayış sahəsinə mülkiyyətçi və ya icarəçi ilə bərabər hüququ olduğu yaşayış sahəsi barəsində əqdlər yerinə yetirilərkən razılıq vermək;

y) valideynlər vəfat etdikdə, yaxud valideynlik hüquqlarından məhrum edilmiş valideynlərin yaşayış sahəsi məcburi dəyişdirildikdə, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların hüququ olduğu yaşayış sahəsinin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq özəlləşdirmək və həmin yaşayış sahəsi məcburi dəyişdirildiyi halda valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların mülkiyyətinə keçməsi barədə öz səlahiyyətləri daxilində müqavilə bağlamaq".

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 15 iyul 2000-ci il**

**№ 377**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2937.**